# AMEA-nın 80 illik yubileyinə hazırlıq məsələlərinin müzakirəsi

**Akademiyanın Rəyasət Heyətinin binasında AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin rəhbərliyi ilə müşavirə keçirilib.**

Tədbirdə AMEA Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri və bölmələrin elmi katibləri, aidiyyəti şəxslər iştirak ediblər.

Müşavirədə dövlət başçısının "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" Sərəncamından irəli gələrək, Akademiyanın 80 illik yubileyinə hazırlıq məsələləri müzakirə edilib.

Müşavirədə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxış edərək dövlət başçısının Sərəncamı çərçivəsində Akademiyanın 80 illiyinə həsr olunmuş bir sıra tədbirlərin keçirildiyini bildirib. Qeyd edib ki, Akademiyanın tarixində ilk dəfə olaraq Bakıdan kənarda Qarabağ Universitetində Elm və Təhsil Nazirliyi və AMEA-nın birgə təşkilatçılığı ilə "Azərbaycan Milli Elmlər Akademiyasında Qarabağnamə ənənəsi və müasir dövr" mövzusunda elmi konfrans keçirilib. Həmçinin AMEA-nın Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə muxtar respublikada da elmi sessiya keçirildiyini xatırladıb.



AMEA rəhbəri Milli Elmlər Akademiyasının yubiley tədbirlərinin tarixdə ilk dəfə olaraq ölkədən kənarda qardaş Türkiyənin Ankara şəhərində Türkiyə Elmlər Akademiyasının (TÜBA) təşəbbüsü və Ankara Universitetinin dəstəyi ilə, İstanbul şəhərində isə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin elmlər akademiyaları prezidentlərinin İkinci toplantısında yüksək səviyyədə qeyd olunduğunu diqqətə çatdırıb.

AMEA rəhbəri, həmçinin Milli Elmlər Akademiyasının 80 illik yubileyi çərçivəsində bir sıra nəşrlərin hazırlandığını, onlardan bir qisminin artıq işıq üzü gördüyünü, müəyyən nəşrlərin isə redaksiya mərhələsində olduğunu söyləyib.

Akademik İsa Həbibbəyli həmçinin payızda yekun yubiley tədbirinin keçiriləcəyini söyləyib, bu məqsədlə tədbirin təşkili, qonaqların müəyyənləşdirilməsi və dəvəti, eləcə də bu məqsədlə kitab və monoqrafiyaların nəşri ilə bağlı Rəyasət Heyəti aparatının şöbə müdirlərinə müvafiq tapşırıqlarını verib.

Müşavirədə AMEA-nın akademik-katibi akademik Arif Həşimov, Rəyasət Heyəti aparatının şöbə müdirləri - filologiya elmləri doktoru Sərxan Xavəri, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, filologiya üzrə fəlsəfə doktoru Aynur Mahmud, filologiya üzrə fəlsəfə doktoru Əsmər Əliyeva, "Elm" nəşriyyatının direktoru filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov və başqaları çıxış edərək AMEA-nın 80 illik yubileyinə hazırlıqla bağlı görülən işlər barədə məlumat veriblər.

Sonda çıxış edən akademik İsa Həbibbəyli Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını çatdırıb.

Elm .- 2025.- 18 iyul (№25).- S.2.